AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNİVERSİTETİ

# "AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASININ AKTUAL PROBLEMLƏRİ"

**fənni üzrə**

# P R O Q R A M

*(magistr hazırlığı üçün)*

**Bakı – 2012**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

# "AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASININ AKTUAL PROBLEMLƏRİ"

**fənni üzrə**

# P R O Q R A M

**(*magistr hazırlığı üçün*)**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30 noyabr 2012-ci il tarixli 2151№-li əmri ilə təsdiq edilmişdir.*

**Bakı – 2012**

**Tərtibçi:** *pedaqoji elmlər namizədi, dosent*
**Akif Məmmədov**

**Rəyçilər:** *filologiya elmləri namizədi, dosent*
**Şəhla Əhmədova**

*pedaqoji elmlər namizədi, dosent*
**Almaz Məmmədova**

©BSU, 2012

## İZAHAT VƏRƏQİ

"Azərbaycan dilinin tədrisi metodikasının aktual problemləri" pedaqoji kadr hazırlayan ali məktəblərin magistratura şöbələrində tədris olunan ən mühüm fənlərdən biridir. Proqram ali pedaqoji məktəblərin "Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası" ixtisası üzrə təhsil alan magistrlər üçün nəzərdə tutulmuşdur. Fənnin tədrisində **əsas məqsəd** Azərbaycan dilinin tədrisi metodikası sahəsində hazırda həllini gözləyən ən mühüm məsələlərin, vəzifələrin, problemlərin müəyyənləşdirilməsi və onların həlli yollarının göstərilməsidir. Bu problemlərin həll edilməsinin aktuallığı həm də son zamanlar dövlətimizin Azərbaycan dili ilə bağlı qərar və göstərişlərindən irəli gəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 23 may 2012-ci il tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda yazılır: "Ana dilimiz öz ifadə imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik strukturunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik, yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir". Deməli, bu dilin öyrədilməsi sahəsində tədqiqat aparacaq gənclərə - magistrlərə bu gün üçün daha əhəmiyyətli olan problemlərin müəyyənləşdirilməsi çox vacibdir.

Proqram tərtib edilərkən bir məsələyə də xüsusi diqqət yetirilmişdir: magistrləri daha çox tədqiqat xarakterli işlərə yönəltmək. Çünki bu günün magistri sabahın müstəqil tədqiqatçısı sayılır. Proqramın tələbinə görə də fənnin tədrisi prosesində onlar müəllimin rəhbərliyi ilə eyni zamanda tədqiqat aparır, faktlar əldə edir, ümumiləşdirmələr edir və müvafiq qənaət – elmi nəticə əldə edirlər.

Proqramın sonunda fənni tədris edən müəllimlərə və ma-gistrlərə kömək üçün müvafiq ədəbiyyat siyahısı verilmişdir.

Proqranda Azərbaycan dilinin tədrisi metodikasının aktual problemləri aşağıdakı istiqamətlərdə müəyyənləşdirilmiş və onların öyrənilməsi nəzərdə tutulmuşdur:

1) Hazırda təlimin məzmunu metodistlər arasında ciddi müzakirə mövzularından biridir. Kurikulum proqramlarına keçilməsi ilə əlaqədar bu məsələ indi daha çox aktuallıq kəsb etmişdir. Azərbaycan dilinin tədrisi metodikası sahəsində yetişən gənc tədqiqatçı-alimlərin – magistrlərin də bu problemlə yaxındn tanışlığı vacib bilinmişdir.

2) Azərbaycan dili ilə bağlı Dövlət sənədlərinin öyrənilməsi və təlimdə bunların nəzərə alınması əsas itiqamətlərdən biridir.

3) Hazırda orta məktəbdə bütün fənlərlə, o cümlədən Azərbaycan dili fənni ilə bağlı şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsinin yeni kriteriyaları, müasir dərsin mərhələləri, müasir təlim texnologiyarı və s. nisbətən fərqli şəkildə müəyyənləşdirilmiş və tətbiq olunmağa başlanmışdır. Hər bir magistrin bunları nəinki bilməsi, həm də onlara bir tədqiqatçı kimi yanaşması çox gərəklidir.

4) Təbii ki, bu fənn bakalavr pilləsində tədris olunan "Azərbaycan dilinin tədrisi metodikası" fənnindən mövzlarının dərinliyi, əhatə genişliyi və tədqiqatyönümlü olması ilə fərqlənir. Bunu nəzərə alaraq, ayrı-ayrı dilçilik bölmələrinin, mövzların tədrisində hazırda orta məktəbdə mövcud olan çətinliklərin, aktial məsələlərin öyrənilməsi də nəzərdə tutulmuşdur.

5) Proramdakı əsas istiqamətlərdən biri də magistrlərin müasir dilçilik, Azərbaycan dilinin tədrisi metodikası elmi sahəsində aparılan son tədqiqat işləri ilə, bu sahə ilə bağlı mətbuatda dərc olunan məqalələrlə tanışlığıdır.

**1. Azərbaycan dilinin tədrisi metodikasında təlimin məzmunu problemi.** Təlimin məzmunu anlayışı. Azərbaycan dili proqramlarında əksini tapan mövzular, onların həcmi məsələsi. Ayrı-ayrı siniflərdə təlimin məzmunu. Metodist-alimlərin bu problemə münasibəti.

**2. Azərbaycan dili ilə bağlı dövlət sənədləri, onların Azərbaycan dili təliminə təsiri.**

**Azərbaycanın dövlət müstəqilliyinə qədər qəbul edilmiş sənədlər:** "Dövləti-lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında" (27 iyun 1918ci il); Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Qərarı (28 avqust 1918-ci il); Azərbaycan İnqilab Komitəsinin birinci və ikinci dərəcə məktəblərdə lisan təlimi haqqında əmrnaməsi (16 avqust 1920-ci il); Sovet idarələrində kargüzarlığın rus və türk dillərində aparılmasını tətbiq etmək haqqında Azərbaycan İnqilab Komitəsinin Əmri (8 fevral 1921-ci il); Respublikanın dövlət idarələrində dövlət dilini və əhalinin əksəriyyətinin və azlıqda qalan millətlərin dillərini tətbiq etmək haqqında (27 iyun 1924-cü il); Azərbaycan SSR Konstitusiyasına Azərbaycan SSR dövlət dili barəsində maddə əlavə edilməsi haqqında Azərbaycan KP MK bürosunun Qərarı (24 iyul 1956-cı il); Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) Azərbaycan SSR dövlət dili barəsində maddə əlavə edilməsi haqqında Qanun (25 avqust 1956-cı il); Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasından çıxarış (73-cü maddə). **Azərbaycanın dövlət müstəqilliyi qazanıldıqdan sonra qəbul edilmiş sənədlər:** Yeni Azərbaycan əlifbası layihəsinin hazırlanması haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı (2 fevral 1991-ci il); Yeni Azərbaycan əlifbası layihəsinin tərtibi haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı (9 fevral 1991-ci il); "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qaydası barədə Azərbaycan

Respublikası Ali Soveti Milli Şurasının Qərarı (25 dekabr 1991-ci il); Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu (22 dekabr 1992-ci il); Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasından çıxarış (21-ci maddə); "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (18 iyun 2001-ci il); "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (9 avqust 2001-ci il); Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu (30 sentyabr 2002-ci il); "Azərbaycan dilinin orfoqrafiya qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (5 avqust 2004-cü il); Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (23 may 2012-ci il).

**3. Ümumtəhsil sistemində qiymət konsepsiyası.** Müasir dövrdə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər. Qiymət Konsepsiyanın yaradılması üçün zəruri səbəblər. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri. Əsas qiymətləndirmə növləri. Qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması. Məktəbdaxili qiymətləndirmənin mahiyyəti və məzmunu. Şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi sistemi. Bütün bunların Azərbaycan dili təlimində nəzərə alınması.

**4. Müasir dilçilik elmi və orta məktəbdə Azərbaycan dili fənni: uyğunluqluqlar və uyğunsuzluqlar.** Bu baxımdan orta məktəbdə tədris olunan fonetika, söz yaradıcılığı, leksikologiya və qrammatika (morfologiya və sintaksis) bölmələrinin təhlili.

**5. Müasir Azərbaycan dili dərsinin mərhələləri:** motivasiya və problemin qoyulması mərhələsi; tədqiqatın aparılması mərhələsi; informasiya mübadiləsi mərhələsi; informasiyaların təşkili və

müzakirəsi mərhələsi; nəticə və ümumiləşdirmə mərhələsi; yaradıcı tətbiqetmə mərhələsi; ev tapşırıqlarının verilməsi mərhələsi.

**6.Azərbaycan dili dərsində istifadə olunan müasir təlim texnologiyaları (interaktiv təlim üsulları):** anlayışların çıxarılması; auksion; BİBÖ; beyin həmləsi (breynrinq); karusel; klaster (şaxələndirmə); mühazirə; müzakirə; problemli vəziyyət; layihə; qərarlar ağacı; rollu oyun; venn diaqramı və s.

**7. Azərbaycan dili dərsinin müasir planlaşdırılması.** Perspektiv və gündəlik planlaşdırma. Müasir dərsin planlaşdırılmasında müəllim üçün zəruri hesab edilən bilik və bacarıqlar. Perspektiv və gündəlik planlaşdırmanın sxemləri.

**8. Ayrı-ayrı bölmələrin tədrisindəki aktual problemlər.**

**Fonetikanın tədrisində qarşıya çıxan aktual problemlər.** Orfoqrafiya təlimində qarşıya çıxan çətinliklər, bu çətinliklərin aradan qaldırılması yolları. Şagirdlərin düzgün tələffüz vərdişlərinə yiyələnməsi yolları, bu sahədəki maneələr və s. Fonetikanın təlimində orfoepik-orfoqrafik qaydaların həcmi, onların öyrədilməsi yolları.

**Leksikologiya təliminin aktual məsələləri.** Omonim və çoxmənalı sözlərin müqayisəsi; sözlərin mənşəcə müəyyənləşdirilməsi; arxaik sözlərin öyrənilməsində ədəbiyyat fənninin rolu: neologizmlərin yaranma səbəbləri, onların şagirdlərin fəal lüğət fonduna tədricən daxil edilməsi yolları; lüğət ehtiyatının zənginləşdirilməsi yolları, bu sahədə bədii ədəbiyyatın, fənlərarası əlaqənin rolu və s.

**Orta ümumtəhsil məktəblərində dilçiliyin söz yaradıcılığı bölməsinin tədrisi problemləri.** Söz yaradıcılığının yolları; eyniköklü sözlər, sözün başlanğıc formaları, leksik şəkilçinin kökün leksik mənasına uyğun söz yaratması, mürəkkəb sözlərin orfoqrafiyası və s. bu kimi məsələlərin təlimindəki problemlər.

**Əsas nitq hissələrinin təlimi problemləri.** Nitq hissəsi və cümlə üzvü, morfoloji sual və sintaktik sual, qrammatik və leksik omonim və s. bu kimi anlayışların interferensiyasından irəli gələn çətinliklər. Əsas nitq hissələri arasında qrammatik omonimlik (hal və mənsubiyyət şəkilçilərinin omonimliyi, qeyri-müəyyən yiyəlik, qeyri-müəyyən təsirlik hal və adlıq halın formaca eyniliyi və s) və

onların təlimdə yaratdığı çətinliklərin aradan qaldırılması yolları. Əsas nitq hissələrinin oxşar cəhətlərinin (eyni sözün bir neçə nitq hissəsi kimi işlənməsi; substantivləşmə, atributivləşmə, adverbiallaşma zamanı oxşarlıqlar; bir leksik şəkilçinin bir neçə nitq hissəsi yaratması və s.) təlimdə yaratdığı problemlər

**Köməkçi nitq hissələrinin təlimi problemləri.** Əsas nitq hissələri ilə köməkçi nitq hissələri arasındakı qrammatik omo-nimlik; köməkçi nitq hissələrinin öz aralarındakı qrammatik omonimlik (*ki, da,-də, ancaq...* sözlərinin həm ədat, həm bağlayıcı olması, *ilə* sözünün həm qoşma, həm bağlayıcı kimi işlənə bilməsi və s.); köməkçi nitq hissələrinin üslubi imkanlaı; köməkçi nitq hissələrində durğu işarələrindən düzgün istifadə; köməkçi nitq hissələrinin orfoqrafiyası.

**Sintaksisin tədrisində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları.** Söz birləşmələrinin mürəkkəb və tərkibi sözlərdən fərqi; söz birləşmələrinin sintaktik rolu; sintaktik əlaqələrin düzgün mənimsədilməsinin cümlə qurmaqda, cümlə üzvlərini müəyyənləşdirməkdə və s.də rolu; oxşar cümlə üzvlərinin müəyyənləşdirilməsi üzrə şagirdlərə bilik, bacarıq və vərdişlərin verilməsi yolları; həmcins xəbərli sadə cümlə ilə mürəkkəb cümlənin fərqləndirilməsi, oxşar budaq cümlələrin mənimsədilməsi üzrə görüləcək işlər; sintaksisin morfologiya ilə əlaqəli tədrisi; şagirdlərin cümlə qurmaq bacarıqlarının inkişafı və s.

**9. X sinifdə Azərbaycan dilinin tədrisi metodikası problemləri.** Dil və nitq anlayışlarının düzgün müqayisəsi; yazı növlərini, xüsusilə piktoqrafik və ideoqrafik yazının fərqləndirilməsi; ədəbi dil anlayışının, ədəbi dilin normalarının, nitq mədəniyyəti şərtlərinin düzgün mənimsədilməsindəki çətinliklər. Bu sinifdəki "Dilin quruluşu" bölməsində tədris olunan fonetik və leksik anlayışların V sinifdə fonetika və leksika bölmələrində öyrənilənlərlə müqayisəsi.

**10. XI sinifdə Azərbaycan dilinin tədrisi metodikası problemləri.** Üslubiyyat anlayışları ilə nitq mədəniyyəti anlayış-larının qarşılaşdırılması; Üslubların tədrisi zamanı digər fənlərlə sıx

əlaqə (məsələn, bədii üslubun öyrədilməsində ədəbiyyatla, elmi üslubun öyrədilməsində digər fənlərlə – riyaziyyat, fizika, biologiya və s.lə) əlaqə; publisistik üslubu öyrədərkən qəzet və jurnal materiallarından geniş istifadə; rəsmi-işgüzar üslubun tədrisi zamanı aparılan praktik işlər və s.

**12. Orta məktəbdə rəsmi və işgüzar sənədlərin öyrədilməsi.** Rəsmi və işgüzar sənədlərin fərqləndirilməsi. Əməli yazı nümunələrinin proqrama uyğun olaraq V sinifdən başlayaraq öyrədilməsi (V sinifdə - ərizə, elan, məktub; **VI sinifdə**- arayış, tərcümeyi-hal, teleqram, akt; **VII sinifdə**- ərizə, məktub,qəbz,elan,rəy: **VIII sinifdə**- zəmanət, anket, rəy; **IX sinifdə**- protokol, tərcümeyi-hal, telefonoqram; **X sinifdə**- annotasiya, vəkalətnamə, məlumat; **XI sinifdə** - hesabat, referat, protokol, iş planı).

**13.TQDK-nın testləri və orta məktəbdə Azərbaycan dili proqramı.** TQDK-nın Azərbaycan dili proqramı ilə Təhsil Nazirliyinin 2002-ci ildə təsdiq etdiyi orta ümumtəhsil məmtəblərin V-XI sinifləri üçün Azərbaycan dili proqramının müqayisəsi. Orta məktəbin Azərbaycan dili dərsliklərində və TQDK-nın testlərində bəzi nəzəri və praktik məsələlərə yanaşma.

**14. "Azərbaycan dili və ədəbiyyatının tədrisi" jurnalının və orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisində rolu.** Jurnalda 2000-ci ildən sonra Azərbaycan dilinin tədrisi metodikası, məktəb təcrübəsi və dilçiliyin nəzəri məsələlərinə dair dərc olunan məqalələrin icmalı.

**15. Azərbaycan dilinin tədrisi metodikası sahəsində son tədqiqat işləri.** 2000-ci ildən sonra bu sahəyə aid monoqrafiyalar, metodiki vəsaitlər, dərsliklərə şərhlər, dissertasiyalar və s.

## ƏDƏBİYYAT

1.Tədris planı və proqramlar. Milli kurikulum. Fənn kurikulumu.

2. az.wikisource,org. Kateqoriya: Azərbaycan dili haqqında qərarlar, fərmanlar, qanunlar.

3. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (18 iyun 2001-ci il).

4. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu (30 sentyabr 2002-ci il).

5. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (23 may 2012-ci il).

6. Orta ümumtəhsil məktəblərinin "Azərbaycan dili" dərslikləri.

7. "Azərbaycan dili və ədəbiyyatının tıdrisi" jurnalını 2000-2012-ci il nömrələri.

8. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Kurikulum" portalı. (www, kurikulum az.)

9. www.idrak-m.com/?tag=kurikulum saytı

10. İnteraktiv təlim metodları və onların tətbiqi yolları, 2003.

11. A. Paşayev və b. "Azərbaycan dili və ədəbiyyat dərslərində interaktiv təlim metodları", 2011.

12. Soltan Hüseynoğlu "Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal – interaktiv təlim", 2009.

13. Azərbayca Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (təlim Azərbaycan dilində olan məktəblər üçün) fənni kurikulumu (V-XI siniflər). 2011-ci il.

Çapa imzalanıb: 03.12.2012.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 0,75 ç.v. Tiraj: 100. Sifariş № 117.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az